yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | იენი იოლი საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur










2 ƏN ƏSASI CAN SAĞLIĞIDIR

3 GƏLƏCƏYƏ GEDƏN YOL - GƏNCLİK

4 BERİKA ŞUKAKİDZE İLƏ MÜSAHİBƏ

6 DAHİ BƏSTƏKAR VƏ MÜTƏFƏKKİR ÜZEYİR HACIBƏYLİ


HAQQIN SÖZÜ - SÖZÜN HAQQI

# Yeni YOL

30 NOYABR 2018-Cİ İL

№019 (78)

## SALOME ZURABİŞVİLİ 59,54 FAİZ SƏSLƏ PREZİDENT SEÇİLİB



Gürcüstanın Mərkəzi Seçki Komissiyası (MSK) noyabrın 28-də keçirilən ikinci tur prezident seçkilərinin nəticələrini açıqlayıb. Rəsmi nəticələrə əsasən, "Gürcü arzusu" Partiyasının dəstəklədiyi prezidentliyə müstəqil namizəd Salome Zurabaşvili 59,54 faiz səslə prezident seçilib.

"Güc birlikdədir" müxalif hərəkatının dəstəklədiyi Qriqol Vaşadze isə 40,46 faiz səs toplayıb. Məlumata görə, Salome Zurabişvilini 1 147 106 seçici, Qriqol Vaşadzeni isə 779 614 nəfər dəstəkləyib.

Qeyd edək ki, Salome Zurabişvili Gürcüstanın ümumxalq səsverməsi ilə seçilən sonuncu prezidentdir. 2024-cü ildə ölkə prezidenti parlamentin deputatları, quberniya və bələdiyyə rəhbərləri tərəfindən seçiləcək. Konstitusiyaya uyğun olaraq Salome Zurabişvilinin andiçmə mərasimi dekabrın 16-da baş tutacaq.

1952-ci ildə Fransa paytaxtında, gürcü mühacirlərin ailəsində anadan olan Salome Zurabişvili Paris Siyasi Elmlər İnstitutunu və ABŞ-ın Kolumbiya Universitetini bitirib. 1974-cü ildən Fransa Xarici İşlər Nazirliyi sistemində çalışıb. Fransanın İtaliyadakı səfirliyində üçüncü katib, BMT-dəki nümayəndəliyində ikinci katib, ABŞ-dakı səfirliyində birinci katib, Çaddakı səfirliyində birinci katib postlarını tutub.

Salome Zurabişvili 1992-ci ildən Fransanın NATO-dakı nümayəndəliyinin birinci katibi, 1993-cü ildən Fransanın Avropa İttifaqındakı daimi nümayəndəsinin müavini olub, sonrakı illərdə Fransa Xarici İşlər Nazirliyində çalışıb.

2003-cü ildə Gürcüstana səfir göndərilən Salome Zurabişvili 2004-cü ildən bu ölkənin xarici işlər naziri olub.

2005-ci ildə nazir postundan gedən Salome Zurabişvili bir müddət ictimai hərəkat, sonra partiya lideri olub, 2016-cı ildə parlamentin deputatı seçilib. Salome Zurabişvili Gürcüstanın ilk qadın prezidentidir.

Xatırladaq ki, 2013-cü ildən dövlət başçısı postunu Giorgi Marqvelaşvili tutur. Əvvəllər Zviad Qamsaxurdiya (1991-1992), Eduard Şevardnadze (1995-2003) və Mixail Saakaşvili (2004-2013) prezident olublar.

## GÜRCÜSTAN MİLLİ TƏHLÜKƏSİZLİK ŞURASI LƏĞV OLUNUB

Gürcüstan Milli Təhlükəsizlik Şurası ləğv olunub. Gürcüstan prezidenti Giorgi Marqvelaşvili konstitusiyaya müvafiq dəyişiklikləri imzalayıb.

Yeni prezidentin inauqurasiyasından sonra qüvvəyə minəcək dəyişikliklərə əsasən, dövlət başçısı yanında məşvərətçi orqan olan Milli Təhlükəsizlik Şurası ləğv olunacaq.

Gürcüstan prezidentinin parlament üzrə nümayəndəsi Ana Natsvlişvili bildirib ki, G.Marqvelaşvilinin çoxsaylı müraciətlərinə baxmayaraq, Milli Təhlükəsizlik Şurasına alternativ orqan yaradılmayıb.

Qeyd edək ki, Gürcüstan Milli Təhlükəsizlik Şurası ölkənin milli hərbi strategiya və müdafiə sisteminin təşkili məsələləri ilə məşğul olurdu. Şuranın həmçinin ölkədə hərbi və ya fövqəladə vəziyyət elan etmək səlahiyyəti də var idi.

Gürcüstanın daxili işlər naziri Giorgi Qaxarianın jurnalistlərə bildirdiyinə görə isə, gələn ilə qədər Gürcüstanın Milli Təhlükəsizlik Şurası yeni formatda təşkil olunacaq və baş nazirə tabe olacaq.



"Dekabr ayının 1-nə qədər parlamentdə bu məsələ ilə bağlı qanunvericilik təşəbbüsünün irəli sürülməsi nəzərdə tutulub. Yeni ilə qədər ölkənin yeni formatda, yenidən qurulmuş Milli Təhlükəsizlik Şurası yaradılacaq. Şura baş nazirin tabeçiliyində olacaq", - deyə Giorgi Qaxaria bildirib.

## 600 MİNDƏN ÇOX VƏTƏNDAŞIN BANKA OLAN BORCU SİLİNƏCƏK



Gürcüstanın baş naziri Mamuka Baxtadzenin keçirdiyi brifinqdə bildirdiyinə əsasən, 600 mindən çox vətəndaşın banklar, onlayn kredit verən maliyyə təşkilatları və digər maliyyə qurumlarına olan borcları silinəcək.

Baş nazir qeyd edib ki, borcların sıfırlanması prosesinə dekabrın 15-də başlanılacaq və dekabrın 31-dək proses başa çatdırılacaq.

""Qara siyahı"da göstərilmiş borcların, təxminən, 95 faizini kreditlər təşkil edir ki, onların da hər şəxs üçün məbləği 2 min laridən azdır. Söhbət 600 mindən çox vətəndaşın banklar, onlayn kredit verən maliyyə təşkilatları və müxtəlif maliyyə qurumları qarşısındakı, təxminən, 1,5 milyard lari təşkil edən maliyyə öhdəliklərindən gedir. Bugünkü qərarla vətəndaşlarımızın bu borcları sıfırlanır. Qeyd etmək lazımdır ki, bu kateqoriyaya sosial təminatsız və məhdud imkanları olan vətəndaşlarımız daxildir", - deyə M.Baxtadze bildirib.

O qeyd edib ki, borcların silinməsi prosesi "Kartu" Fondunun dəstəyi ilə həyata keçiriləcək.



# ƏN ƏSASI CAN SAĞLIĞIDIR

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

*Ötən həftə apteklərin birində (Ad çəkməyin, şəkil paylaşmağın reklam olduğu bu kommersiya dövründə mən də aptekin adını yazmıram, onsuz da bilənlər bilir hansı aptekdən söhbət gedir) yaşlı bir qadınla satıcı arasında ayaqüstü bir mübahisənin şahidi oldum. Deməli, qadın aldığı dərmanlara görə verilən uduşlu biletləri götürmür, satıcı isə təkidlə biletləri qadına verməyə çalışırdı. Xəbəri olmayanlar üçün onu da deyim ki, həmin aptekdən hər 10 larilik alınan dərman üçün 1 bilet verilir ki, fəslin sonunda televiziya vasitəsi ilə biletlər oynanılır. "Şansı gətirən" üç nəfər nə vaxtsa xəstələnib həmin aptekdən dərman aldığına görə 25 min lari, 10 il ərzində ayda min lari maaş və Tbilisidə təmirli mənzil qazanır (Lap məşhur giley-güzardakı kimi – əcəb epoxaya düşmüşük, deyilmi?! Xəstələn – pul, maşın, ev qazan). Satıcının əlində tutduğu 7 biletdən qadının dərmanlara 70 laridən çox xərclədiyini müəyyən etmək olardı. Satıcı qızla deyişə-deyişə sonda biletləri götürüb, ovcunda əzişdirib tulladı və "Ay camaat, onsuz da bunlar bu biletləri Tiflisə aparmırlar, töküb yandırırlar. Məndən çox dərman alıb bilet yığan yoxdu, hələ heç bir "Çitramon" da udmamışam. Heç görmüsünüzmü rayondan bir musurman ev uda", - deyib apdekdən çıxdı.*

Doğrudan da rayondan bir "musurmanın" ev və ya avtomobil qazanması mənim də ağlıma gəlmir. "Musurman" bir yana, ümumiyyətlə, "rayondan", yəni Qardabanidən, Marneulidən, lap belə Kvemo Kartlidən aptekin bu uduşlu oyununda nəsə qazanan olubmu? Bəlkə bu bölgədə camaat xəstələnmir, dərman almır? Bəlkə bu bölgədə həmin aptekdən yoxdur. Yox! Aptek var axı. Camaat xəstələnir də, dərman da alır. Aptekin təyin elədiyi endirimli günlərdə növbədən qapını açıb içəri girməyə yer olmur. Biletlərin yığıldığı şəffaf qab ağzına qədər dolub daşır da. Bəs niyə 2008-ci ildən bu yana heç kəs Qardabanidən ya Marneulidən heç nə qazanmayıb? Qadının dediklərində həqiqət var. Məsələ nəsə qazanmaqdan getmir, insanlarımız onlu da, onsuz da dərmanlarını alırlar. Məsələ başqa zaddır ki, adına yalan, oyunbazlıq, ayrı-seçkilik və sair -lıq, -liq, -luq, -lüq deyilir.

Ümumiyyətlə, regionlara ögey münasibət var. Sözümüz aptekdən düşmüşkən elə tibb sahəsindən də davam edək. Məsələn, bölgə xəstəxanalarında həyati vacib olan tibbi ləvazimatların çoxusu yoxdur, biliksiz, savadsız həkimləri həmişə bölgə xəstəxanalarına göndərirlər. Qızılca ilə suçiçəyi xəstəliklərini bir-birindən ayıra bilməyən pediatrlar, həkimlər az qala sidik analizinə görə də xəstələri paytaxta göndərirlər. Hamiləliyi planlaşdıranlar üçün vacib olan TORCH-infeksiyalara görə analiz haqqında region hospitallarındakı ginekoloqların çoxunun xəbəri belə yoxdur. Xəstəxanalarda bilikli, savadlı kadr çatışmamazlığı var. Böyük bir rayona bir nevropotoloq, bir ortoped, hər loq-dan, ped-dən bir-bir qoyublar ki, onlar da Tbilisidən gəlib çıxana kimi günorta olur, onda da nahar eləməyə çıxırlar. Niyə kimsə allerqoloq, oftalmoloq, pulmonoloq, immunoloq və digər loqlar üçün Rustaviyə, Tbilisiyə getməlidir. Adama deyərlər, meşədəmi yaşayırsan. Avropa, Avropa bağırmaqdan zob vəzilərin şişib, yaşadığın şəhərin xəstəxanasında bir endokrinoloq yox idimi özünü göstərməyə bu istidə, yağışda, qarda kənd basa-basa mənə sarı gəlmisən? Niyə öz hospitalınızda doğmursuz, Rustaviyə, Tbilisiyə üz tutursuz? Və niyələrin sayını artırmaq olar.

Regionlara olan ögey münasibət təkcə səhiyyə sahəsində deyil, bütün sahələrdə özünü göstərməkdədir. Təəssüf ki, bütün bunları 8 səhifəlik bir qəzetə sığışdırmaq mümkün deyil. Bu ögey münasibətin qarşılığıdır ki, insanlar artıq nə uduş biletinə, nə həkimə, nə müəllimə, nə də paytaxta inanır. Balıq başdan iylənər deyiblər. Nə isə...

*Dilimizdə uğurlardan da, uduşlardan da əsas olanı deyən bir ifadə var ki, bəlkə də təsəllinin ən neytral formasıdır. Necə deyərlər, ən əsası can sağlığıdır. Apdekdəki qadın uduş biletlərini tullayıb çıxanda başqa bir qadın isə məhz bu ifadəni dedi: "Nə pul istəyirəm, nə də ev. Canım sağ olsun, nə xəstələnim, nə dərman alım, nə də ev udum. Ən əsası can sağlığıdır". Canınız sağ olsun, əziz oxucu.*

## "GÜRCÜSTAN POÇTU" VƏ "GÜRCÜSTAN DƏMİRYOLU" ÖZƏLLƏŞDİRMƏYƏ ÇIXARILACAQ



Gürcüstan hökuməti milli poçt operatoru olan "Gürcüstan Poçtu" və "Gürcüstan Dəmiryolu" SC-ni özəlləşdirməyə çıxarmağı planlaşdırır. Bu barədə Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf naziri Giorgi Kobulia "Bloomberg"ə müsahibəsində bildirib.

Nazir deyib ki, energetika bazarında yaranmış problemlərə görə 2011-ci ildən fəaliyyəti dayandırılmış "Dövlət Energetika Sistemi"nin də satışı nəzərdə tutulub.

"Hazrıki mərhələdə biz bu şirkətlərin effektivliyini artırmalıyıq ki, onlar alıcılar üçün daha cəlbedici olsun", - deyə G.Kobulia bildirib.

Onun sözlərinə görə, dövlət bu obyektlərin satışından on milyonlarla gəlir əldə edəcək, lakin bununla belə hökumət "Gürcüstan Dəmiryolu" şirkətində müəyyən həcmdə dövlət payını saxlamaq niyyətindədir. "Dövlət şirkətlərinin satışı iqtisadiyyatın artımını stimullaşdırmalıdır. Hökumətin planına əsasən, 2025-ci ildə ölkədə iqtisadi artım 7 faizə çatmalıdır", - deyə nazir bildirib.

## SÜRÜCÜLÜK VƏSİQƏSİ İMTAHANININ REAL HƏRƏKƏTDƏ VERİLMƏSİNİN VAXTI YENƏ UZADILIR



Sürücülük vəsiqəsinin praktiki imtahanının küçədə, real hərəkətdə verilməsi bir neçə ay müddətinə yenə təxirə salınıb. Xatırladaq ki, bu qayda 2019-cu ilin yanvarından qüvvəyə minməli idi.

DİN-in Xidmət Agentliyindən bildiriblər ki, layihə üçün nəzərdə tutulmuş imtahan veriləcək yollar, küçələr üzərində çalışmalar başa çatsa da bir hissəsi hələ də davam edir.

"DİN-in Xidmət Agentliyində nəqliyyat vasitələrinin idarəsi vəsiqəsini almaq istəyənlər praktiki imtahanı yeni standartlara uyğun olaraq Gürcüstanın 10 şəhərində verə biləcəklər: Rustavi, Qori, Telavi, Axaltsixe, Kutaisi, Saçxere, Ozurgeti, Batumi, Zuqdidi və Poti.

Məlum olduğu kimi, avtomobil idarəsinin praktiki imtahanının şəhərin real şəraitində verilməsi layihəsi miqyası və komponentlərinin kompleksliliyi ilə seçilir. Gürcüstan Vyana Konvensiyasının üzv ölkəsidir və nəqliyyat vasitələrinin kateqoriyaları və imtahan vermə qaydaları onunla tam uyğun olmalıdır. Avropa İttifaqı ilə Assosiasiya Sazişinə əsasən, Gürcüstan üzərinə öz qanunvericiliyini Avropa İttifaqının qanunvericiliyi ilə yaxınlaşdırmaq öhdəliyi götürüb. Qeyd olunan razılığa əsasən, Gürcüstan sürücülük vəsiqəsinin verilməsi haqqında 2006-cı ilin 20 dekabr tarixli Avroparlament və Şuranın 2006/126/EC direktivini qəbul edib. Buna görə qeyd olunan layihədə avrodirektiv standartlarına uyğun olaraq indiyə qədər olmayan müxtəlif nəqliyyat vasitələri kateqoriyasının uyğun səviyyəyə gətirilməsinə və yeni kateqoriyaların/alt kateqoriyaların əlavə olunmasına ehtiyac duyulub. Layihə üçün imtahan marşrutları nəzərdə tutulub. Onun bir hissəsi üzərində işləmələr artıq başa çatıb və digər hissəsi üzərində infrastruktur işləri davam edir. Layihə çərçivəsində planlaşdırılan qanunvericilik dəyişikliklər paketi Gürcüstan parlamentinə yaxın gələcəkdə təqdim olunacaq", - deyə DİN-dən bildirilib.

Qeyd etmək lazımdır ki, sürücülük vəsiqəsi almaq istəyən şəxslərin imtahanı real hərəkətdə – şəhər küçələrində verməsi ilə yanaşı, onu köhnə sistemlə vermək öhdəliyi də olacaq.

## "GÜRCÜSTAN DƏMİRYOLU" VETERANLARA YOL HAQQINI YARI QİYMƏTƏ ENDİRƏCƏK

Gələn ildən "Gürcüstan Dəmiryolu" magistral gediş qatarları ilə səyahət edən 70 000-ə qədər vətəndaş 50%-lik güzəştdən istifadə edəcək.

"Gürcüstan Dəmiryolu"ndan verilən məlumata görə, güzəştdən Gürcüstanın ərazi bütövlüyü uğrunda mübarizədə iştirak edənlər, həmin mübarizədə həlak olanların ailə üzvləri, həmçinin İkinci Dünya müharibəsi veteranları və Əfqanıstan müharibəsinin iştirakçıları istifadə edəcəklər.

"Gürcüstan Dəmiryolu"nun nümayəndələrinin məlumatına əsasən, baş nazir Mamuka Baxtadzenin bu təşəbbüsünü hökumət təsdiqlədikdən sonra "Gürcüstan Dəmiryolu"nun Direktorlar Şurası ilin sonuna qədər məsələ ilə bağlı sərəncam verəcək.

## YURTDIŞI TÜRKLER VE AKRABA TOPLULUKLAR BAŞKANLIĞININ NÜMAYƏNDƏ HEYƏTİ TBİLİSİDƏ OLUB



Gürcüstanda işgüzar səfərdə olan Yurtdışı Türkler ve Akraba Topluluklar Başkanlığının (YTB) sədri Abdullah Eren və onun müavini Sayit Yusufun rəhbərlik etdiyi nümayəndə heyəti noyabrın 17-si Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatının (GYMD) Tbilisidə fəaliyyət göstərən tələbə yataqxanalarını ziyarət edib. Ziyarət əsnasında qonaqlar Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə təşkilatının sədri Musa Hacıyev və təşkilatın idarə heyətinin nümayəndələri ilə görüşüblər. Görüşdə GYMD-nin sədri Musa Hacıyev qonaqlara təşkilatın xeyriyyə fəaliyyətləri haqqında geniş məlumat verib.

M.Hacıyev bildirib ki, qurulduğu gündən bu günə qədər Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı həyata keçirdiyi humanitar yardım, təhsil və sosial fəaliyyətləri ilə iki qardaş ölkə arasındakı qardaşlıq münasibətlərinin daha da möhkəmləndirilməsinə xidmət edir.

Yurtdışı Türkler ve Akraba Topluluklar Başkanlığının sədri Abdullah Eren də öz növbəsində təşkilat rəhbərliyinə bu cür xeyriyyə işlərini həyata keçirdiklərinə görə dərin minnətdarlığını bildirərək fəaliyyətlərini yüksək qiymətləndirib və gələcək işlərində uğurlar arzulayıb.

## TÜRKİYƏDƏ TƏHSİL ALMIŞ TƏLƏBƏLƏRİN TBİLİSİDƏ GÖRÜŞÜ KEÇİRİLİB



Türkiyənin müxtəlif universitetlərində bakalavr, magistr və doktorantura dərəcələrində təhsil almış gürcüstanlı məzunlar Yurtdışı Türkler və Akraba Topluluklar Başkanlığının (YTB) təşkil etdiyi "Türkiyə məzunlarının görüşü" proqramı çərçivəsində paytaxt Tbilisdə bir araya gəliblər. Proqrama YTB sədri Abdullah Eren, Türkiyənin Gürcüstandakı səfiri Fatma Ceren Yazqan, TİKA-nın Tibilisi koordinatoru Nejla Demirdağ, Gürcüstandakı türk təşkilatlarının nümayəndələri və 100-dən çox Türkiyədə təhsil almış tələbə qatılıb.

Tədbirdə YTB sədri Abdullah Eren Gürcüstan səfəri çərçivəsində Türkiyə Məzunları Dərnəyinin açıldığını da bildirib.

Türk dövləti olaraq Türkiyə məzunlarının sayının artmasına böyük əhəmiyyət verdiklərini bildirən A.Eren dərnəyin bundan sonra da məzunları bir araya gətirəcəyini deyib: "İnşallah açılan məzun dərnəyi bundan sonra da periodik olaraq məzunlarımızı bir araya gətirəcək və aralarındakı əlaqəni təmin etməyə davam edəcək. Məzunlar Gürcüstanın olduğu qədər Türkiyənin də zənginliyidir".

## TÜRKİYƏ ARALIQ DƏNİZİNİN DAYAZSULU HİSSƏSİNDƏ QAZMA İŞLƏRİNƏ BAŞLAYIB



Türkiyə Aralıq dənizinin dayazsulu hissəsində qazma işlərinə başlayıb. Kəşfiyyat-qaz işləri Aralıq dənizinin dayazsulu hissəsində, Mersin sahilində başlayıb. Layihə üzrə ilk quyu Mersindən təxminən 19 dəniz mili cənub-şərqdə yerləşən "Kuzey Erdemli-1" bölgəsində, 2100 metr dərinlikdə qazılacaq.

Türkiyənin energetika və təbii sərvətlər naziri Fatih Dönmez deyib ki, qazma işləri təbii qaz və ya neft aşkar olunana qədər aparılacaq. "Oruç Reis" və "Barbaros Hayreddin Paşa" gəmiləri ilə seysmik tədqiqatlar isə davam edir.

Xatırladaq ki, Türkiyə "Fatih" gəmisi ilə oktyabrın 30-da Aralıq dənizində qazma işlərinə başlayıb. Aralıq dənizinin dərinsulu hissəsində ilk qazma işləri Antalya sahilində həyata keçirilir. "Alanya-1" adlı kəşfiyyat quyusunu qazacaq gəmidə 200-dən çox yerli və xarici mütəxəssis çalışacaq. "Türkiye Petrolleri Anonim Ortaklığı" (TPAO) şirkəti ABŞ-ın "Schlumberger" şirkəti ilə Aralıq dənizində qazma işləri üçün 15 milyon dollarlıq müqavilə imzalayıb.

Türkiyə Qara dənizdə də neft və təbii qaz axtarmaq niyyətindədir.

Yerli istehsal olan "Fatih" qazma gəmisi bu ilin mayında istifadəyə verilib. Uzunluğu 229 metr olan gəmi suyun 12 min 200 metr dərinliyə qədər hissəsində qazma əməliyyatları aparmaq imkanına malikdir.

## UKRAYNADA HƏRBİ VƏZİYYƏT ELAN OLUNUB



Ukrayna Ali Radası ölkədə hərbi vəziyyətin elan olunması barədə qərar qəbul edib. Qərar Ali Radanın növbədənkənar iclasında deputatların böyük əksəriyyətinin səs çoxluğu ilə qəbul olunub.

Hərbi vəziyyət noyabrın 28-dən etibarən Odessa, Sumı, Xarkov, Nikolayev, Çerniqov, Vinnitsa, Luqansk, Herson, Donetsk, Zaporojya vilayətlərində, həmçinin Azov dənizində tətbiq ediləcək və 30 gün müddətinə qüvvədə qalacaq.

Qeyd edək ki, Ukrayna prezidenti Petro Poroşenkonun Ali Radaya təqdim etdiyi sənəddə ölkədə hərbi vəziyyətin 60 gün olması təklif edilmişdi. Lakin Ali Radada aparılan məsləhətləşmələrdən sonra sənədə dəyişiklik olunub. Hərbi vəziyyətin elan olunmasına səbəb Rusiya Silahlı Qüvvələrinin Azov dənizində Ukrayna Silahlı Qüvvələrinə qarşı silahlı güc tətbiq etməsidir.

Xatırladaq ki, noyabrın 25-də səhər saatlarında Rusiya dəniz qüvvələrinə məxsus gəmilərin Kerç körfəzindən çıxan Ukrayna Hərbi Dəniz Qüvvələrinə aid gəmi qrupuna atəş açması tərəflər arasında ciddi qarşıdurmaya gətirib çıxarıb. Ukrayna beynəlxalq təşkilatları Rusiyaya qarşı sərt sanksiyalar tətbiq etməyə çağırıb.

## GƏLƏCƏYƏ GEDƏN YOL – GƏNCLİK



Hacı BƏKİROĞLU
hacibakir@mail.ru

*Gənclik adamın enerji dolu və hərəkətli olduğu ən dinamik çağıdır. Gənc insan sahib olduğu enerjini xərcləyə bilmək üçün daha çox hərəkətə ehtiyac duyar. Beləliklə, o, bir çox məsələni həll edə biləcək həyəcan, dinamizm və fiziki bacarığa da malikdir; özünə fürsət verildiyində çox böyük müvəffəqiyyətlərə imza ata biləcək qabiliyyətə sahib olar. Ciddi vəzifələri yerinə gətirə biləcək qabiliyyət gənc insanda daim mövcuddur. Əsas olan gəncdəki bu qabiliyyəti kəşf edib, onu inkişaf etdirmək, bunun üçün də ona vəzifələr verərək məsuliyyət şüurunu qazandırmaqdır. Əsri-səadətdə Hz. Peyğəmbərin (s.ə.s) gəncliyin bu cür xüsusiyyətlərini maksimum dərəcədə diqqətə alaraq qiymətləndirdiyi açıq bir şəkildə görülməkdədir. Çünki Hz. Məhəmməd (s.ə.s.) gəncləri təbliğ və irşad fəaliyyətləri daxil dövlət təşkilatının ən üst mərtəbələrinə qədər vəzifələndirmişdir. Gənclər isə Allahın Rəsulunu heç bir zaman xəcalətli etməmişlər, Onun etibarını boşa çıxarmamış və özlərinə verilən çox ciddi dini və administrativ vəzifələri haqqıyla yerinə yetirmişdilər. Bu vəzifələr arasında məsləhətçilik, qubernatorluq, sekretarlıq, hakimlik, komandirlik, sancaqdarlıq, kəşfiyyatçılıq, təhlükəsizlik vəzifələri, maliyyəçilik, müəllimlik kimi çox əhəmiyyətli dövlət vəzifələri vardır.*

Allah Rəsulu gənclərin elm sahəsində yetişmələrinə də böyük əhəmiyyət vermiş və özü hələ həyatda ikən Hz. Əli, Əbdürrəhman b. Avf, Abdullah b. Məsud, Zeyd b. Sabit kimi bəzi gənc səhabənin fətva verməlrinə icazə vermişdir.

Vəhy katiblərini, ümumiyyətlə, gənclər arasından seçmiş, İslama dəvət məktublarını da gənclərə yazdırmışdır. Bəzi gəncləri də Süryanicə və İbranicə kimi o gün üçün çox ehtiyac duyulan xarici dilləri öyrənməyə təşviq etmişdir.

Gəncliyin dəyərinin bilinməsi, gənclərin bu dövrdə həm özləri və həm də ailə, millət, vətən, din və dövlətləri üçün xeyirli və faydalı şeylər etmələriylə mümkün olar. Bunun yolu da yaxşı təhsil almaq, yaxşı iş sahibi olmaq, halalından qazanmaq, hər sahədə müvəffəqiyyəti əldə edə bilmək, qısacası, dünya və axirət səadətini qazanmaq üçün çox çalışmaq, bütün vəzifə və məsuliyyətləri yerinə yetirmək, milli və mənəvi dəyərlərə möhkəm bağlı qalmaq, hər cür pis və zərərli vərdişlərdən uzaq durmaq və Allaha olan qulluq vəzifələrini yerinə yetirməkdən keçir. Bax, o zaman gəncliyin dəyəri bilinmiş və yaxşı bir şəkildə qiymətləndirilmiş olar.

Bu günün gəncləri də zamanın ən gözəl texnologiyalarını öyrənməli, yüksək səviyyədə təhsil almalı, bir sözlə mükəmməl bir hala gəlməlidir. Bundan özünü məhrum edən bir gənc ona verilmiş fürsətləri geri çevirərək nankorluq etmiş olar.

Gənc nəslin yetişdirilməsi hər bir ölkə üçün ən başlıca məsələdir. Çünki gələcəkdə ölkənin inkişafı, müqəddəratı indiki gənclərdən asılı olacaqdır. Nəsillər dəyişir, dövlətlər inkişaf edir. Ancaq ənənələr, milli dəyərlər yaşayır və ölkənin hərtərəfli, uğurlu inkişafı üçün gəncliyin inkişafına təkan vermək şərtdir.

*Bir zamanlar elmin bütün sahələrində ən üstün mərtəbələri əldə edən keçmişlərin mirasına sahib çıxmaq və onların yolu ilə addımlamaq bizim borcumuzdur. Nə qədər ki, yuxuladıq, nə qədər ki, tənbəllik etdik, artıq yetər. Daha oyanmaq və mədəniyyətimizə, mənəviyyatımıza sahib çıxmaq zamanıdır.*

# BERİKA ŞUKAKİDZE: "İSTƏYİRƏM MÜƏLLİMLƏR BİLSİNLƏR Kİ, ONLARIN ƏLDƏ ETDİYİ HEÇ BİR UĞUR HƏVƏSLƏNDİRMƏDƏN KƏNAR QALMAYACAQ"

**Daha çox etibar, məktəblərə və müəllimlərə yardım, təhsil sahəsində çalışan uğurlu adamların həvəsləndirilməsi, uşaqlara daha çox diqqət və daha az "sənəd aludəçiliyi" – Müəllimlərin Peşəkar İnkişaf Mərkəzinin yeni rəhbərinin müəllimlərə mesajı budur. Elmlər doktoru, professor Berika Şukakidze təhsil, elm, mədəniyyət və idman naziri tərəfindən anons edilmiş təhsil reforması qrupunun üzvüdür və o, hesab edir ki, hər hansı dəyişiklik müəllimin, şagirdin və məktəb direktorunun məsləhətini nəzərə almaqla, mövcud reallıqdan qaynaqlanmalıdır. O, "təbaşirin dadına baxmış" müəllimlərə ümid bəsləyir və düşünür ki, fənni sevdirmək üçün şagirdə bilikdən təcrübədə istifadə etmək öyrədilməlidir. Qeyd olunan və digər məsələlərlə bağlı Berika Şukakidzenin "edu.aris.ge" saytı üçün verdiyi müsahibəsini təqdim edirik:**

***– Cənab Berika, Müəllimlərin Peşəkar İnkişaf Mərkəzinin rəhbəri olduğunuz bu kiçik müddət ərzində heç kim sizin müsahibənizə rast gəlməyib. Müəssisə ilə bağlı sizin baxışınız maraqlıdır. Nə gözləyirdiniz və Müəllimlər Evində nə ilə rastlaşdınız?***

– Çox güclü komanda ilə qarşılaşdım. Deyə bilmərəm ki, gözləmirdim. Xeyli müddətdir ki, bu sistemdə çalışıram və az-çox bu adamlarla tanış idim. Ancaq yaxşı mənada bir fakt məni təəccübləndirdi – işləmək tempində mənə çox tez uyğunlaşdılar. Bu dəfə konsepsiya üzərində çalışırıq. Ancaq hələ bilmirik necə inkişaf edəcək. Amma əminliklə deyə bilərəm ki, gələcəkdə nəsə etsək gürcü reallığından qaynaqlanaraq edəcəyik – müəllimdən, şagirddən, məktəb direktorundan soruşacağıq və bundan sonra təhsil siyasəti üzərində çalışacağıq.

İstəyirik müəllimin peşəkar inkişaf və karyerada irəliləmə sxeminin standartı elə səmərəli olsun ki, şagirdin şəxs kimi inkişafına və akademik uğuruna dəstək olsun. İstəyirik müəllim sinif otağında uğurla təsvir olunan iş yerinə yetirsin. Çalışırıq müəllimə kömək edəcək, sinif otağında daha səmərəli olacaq aktivliklər və tənzimləmələr qəbul edək. Bizim məqsədimiz budur.

Artıq 14-ə qədər fokus-qrupda araşdırma apardıq, qrupa bir neçə məktəb direktoru və Tbilisidən, eləcə də regionlardan bir neçə müəllim qoşulmuşdu. Bizi qarşılayanlar əsasən yerli universitetlər və resurs mərkəzləri idi.

Finlandiyada belədir və Sinqapurda elədir deyə oturub gözəl-gözəl sözlərlə beynəlxalq təcrübədən danışmağı və hər şeyi iki günə dəyişməyi planlaşdırmırıq. Finlandiyada həmin konkret reforma ona görə uğurludur ki, onların fin şagirdləri və fin müəllimləri var. Həmin təhsil reforması Gürcüstanda uğurlu olmayacaq, çünki bizim fin şagird və müəllimlərimiz yoxdur. Ona görə biz elə reforma istəyirik ki, gürcü uşağı və gürcü mentalitetinə istiqamətlənmiş olsun. Bizim yaşadığımız mədəni mühiti nəzərə almasaq nəyinsə alınması mümkün deyil. Koreyalı uşaq axşam saat 8-ə qədər oxuyur və çox uğurludur, finlandiyalı uşağın demək olar ki, ev tapşırığı yoxdur və yenə də çox uğurludur. Gürcülər isə sosial olaraq aktiv xalqdır, gürcü uşağını hər şeyi məhdudlaşdırıb və hər şeyi əlindən alıb saat 8-ə qədər kitaba zəncirləsən olmaz. Olduqca çox tapşırıq ver və uğurlu olacaq yanaşması düzgün deyil.

***– Yəni tədris metodlarının asanlaşdırılmasını nəzərdə tutursunuz?***

– Milli Tədris Planından danışa bilmirəm, çünki bu, mənim sahəm deyil. Ancaq təhsil reforması qrupunda varam və mövqeyimi qoruyuram, gəl qızıl ortanı saxlayaq. Burada asanlaşdırıb-çətinləşdirməkdən söhbət getmir. Bizim hansı ağırlığı qaldırmağımızdan, bizim uşağın nə qədər ağırlıq "qaldıra" biləcəyindən söhbət gedir. Bunu nəzərə almalıyıq. Müəllimlərdə də eyni vəziyyətdir.

Müasir uşaq müasir yanaşma istəyir, çünki bizim həyatımız axtarışdır. Alırıq və ya satırıq, işdə və ya başqa yerdə daim nəsə axtarırıq. Ona görə də, bizim gənclərə bu nəslin tələb etdiyi kimi ixtira edən, araşdıran təhsil verməli, bilikdən təcrübədə istifadə etmək öyrətməliyik. Bizim nəsil niyə hərəkətsiz idi? Bizə nə tədqiqi tədris metodları öyrətdilər, nə də bilikdən təcrübədə istifadə etmək. Nyuton qanununu öyrəndin, danışdın, evə get – bu yanaşma ilə fənni necə sevdirib dərk etdirəcən?

Biraz əvvəl mənim universitetim məni Amerikada biomexanika laboratoriyasının açılışına dəvət etdi, möcüzələr yaradırlar. Ola bilər biz oxşar miqyasda labortoriyalar qura bilmərik və bununla heç beynəlxalq səviyyəyə də çıxa bilmərik, amma yerli tələbləri qane edəcək laboratoriyalarımız olmalıdır ki, sonra bu uşaqlar öz ixtisasları üzrə işlə təmin olunsunlar.

***– Cənab Berika, uzun illərdir müəllimlər daim imtahan və dəyişikliklər rejimində yaşayırlar. Buna sərf etdikləri vaxtı şagirdin qayğısına qalmaq və inkişafı üçün istifadə edə biləcəklərinin daha yaxşı olmasını deyərək etiraz edirlər. Bu dəfə müəllimlərin sxeminə hansı dəyişikliklər daxil olacaq və onlar mövcud olan statuslarını necə qorumalıdırlar?***

– Müəllimlərlə müəyyən qədər razıyam. Elə etməməliyik ki, müəllim tamamilə kağız-kuğuzla məşğul olsun və uşaqlara diqqət göstərməsin. Ancaq təhsildə peşəkar inkişaf daim lazımdır. Uğurlu müəllimin adı Pifaqor teoremi deyil ki, bir dəfə kəşf edəsən və inkişaf lazım olmaya. Məktəblərə və müəllimlərə daha çox etibar etməliyik və metodoloji baxımdan kömək göstərməliyik.

İkinci yenilik odur ki, təhsil fakültəsində oxuyan və diplom almadan sertifikat imtahanı verə bilməyən tələbələr üçün qayda daha belə olmayacaq. Onların diplom alana qədər, həmin ili ali təhsili başa vuran kimi sertifikat imtahanları vermək imkanı olacaq. Diplomu isə sentyabrda, tədris başlayana qədər təqdim edə bilərlər. Bu gənclərin bir ilini niyə itirək? Təhsili bitirib və çalışmalıdır. İstəyirik ki, öz ixtisası üzrə daha çox gənc işləsin və daha çox kişilər olsun ki, yaş və cins balansı da qorunmuş olsun. Təəssüf ki, gənc kadrların azlığı problemdir, çünki müəllimlərin orta yaşı 52-dir.

Təhsil nazirinin bildirdiyinə görə, 2021-ci ilə qədər müəllimin əmək haqqı 1500 lariyə qədər artacaq. Baş nazir isə vəd verdi ki, 2025-ci ilə qədər ən çox artan büdcə təhsil sisteminin büdcəsi olacaq.

***– Cənab Berika, müəllimlərin əmək haqqının artmasına dair vəd almağımız yaxşıdır. Amma illər ərzində məktəb direktorlarnın və rəhbərliyinin əmək haqqı dəyişmir. Ancaq məktəb direktorları arasında da, qaydaya əsasən, fərqli əmək haqqı olmalıdır. Çünki bizdə onlar iki kateqoriyadır – sertifikatlı və təyin olunan direktorlar. Dediniz ki, sistemin reforma qrupundasınız, maraqlıdır karyerada irəliləmə və daha çox motivasiya yaratmaq məqsədi ilə direktorların əmək haqqının artırılması planlaşdırılırmı, və ya direktorlar sxeminin yaradılmasını nəzərə almayıbsız ki? Keçən illərdə bu anons edilmişdi.***

– Məktəb rəhbərliyi və direktorların əmək haqqının artırılması təhsil və maliyyə nazirliklərinin səlahiyyətidir. Mən isə deyə bilərəm ki, məktəbin yeni konsepsiyası təsdiqlənən zaman hər şey bu konsepsiyaya uyğunlaşdırılacaq və buna əsasən qərar qəbul edəcəyik. Mən şəxsən "təbaşirin dadına baxmış" direktorlara daha çox ümid edirəm. Əlbəttə, başqa sahədən də gələ bilərlər, amma müəllimi yaxşı başa düşmək, onun zəhmətinə qiymət vermək üçün sənin də müəllimlik



peşəsi haqqında təsəvvürün olmalıdır ya yox? Əgər sən özün dərs keçməyibsənsə, uşaqla münasibətin olmayıbsa, necə başa düşəcəksən ki, məsələn, 20 nəfərə qədər 11-ci və 12-ci sinif şagirdlərini dərsdə idarə etmək çətindir və bunun üçün müəllimlə dalaşmalı deyilsən, əksinə ona dəstək olmalısan!

***– Necə düşünürsünüz, sizin sahədə həll olunmalı ilk və əhəmiyyətli nədir və sizdən müsbət dəyişikliklər gözləyən müəllimlərə hansı mesajınız var?***

– İlk olaraq görülməli olan iş yeni tədris modeli olacaq məktəbdir. Bu dəfə nümunə üçün 150 məktəb seçmişik. Əvvəl buna dair təcrübəmiz yox idi. İndi isə Koordinasiya Şurası yarandı. Orada bizim mərkəz, Milli İmtahanlar Mərkəzi və Akreditasiya Mərkəzi daimi rejimdə çalışacaq. Birgə müasir məktəb modeli üzərində çalışacağıq və təhsil sisteminin reforma elementlərini hələ yalnız 150 məktəbə daxil etmişik. Orada isə mövzuya uyğun, əyləncəli və layihəyə əsaslanmış təhsil üzərində çalışırıq. İnteqrasiya olmuş dərslərimiz var və uşaqlar çox bəyənirlər. Tezliklə həmin layihəni 50 məktəbdə, gələn ilin yazında artıq 100 məktəbdə həyata keçirəcəyik. 2022-ci ildə isə bütün məktəblər yenilənmiş tədris medotu ilə çalışacaq.

Bizim hər birimizin məqsədi tədris metodunun sinif otağına uyğun olmasıdır. Bu təhsil reformasının ən böyük xidməti sistemdə hər yerdə uşaqların görünməsi olacaq. Bu, şagirdə və müəllimə istiqamətlənmiş reforma olacaq. İstəyirəm müəllimlər bilsin ki, onların əldə etdiyi heç bir uğur həvəsləndirmədən kənar qalmayacaq. Hər bir uğurlu addım adekvat olaraq qiymətləndiriləcək.

Gürcü dilindən tərcümə:
Aynurə ƏLİYEVA

# MÜƏLLİMLƏRİN ÖZÜNÜQİYMƏTLƏNDİRMƏ SORĞUSU LƏĞV OLUNUR

"Dekabrın sonunda nazirlik müəllimlərin statusu ilə bağlı mövqeyi ilə bizi tanış edəcək. Əminliklə yalnız onu deyə bilərəm ki, pedaqoqların özünüqiymətləndirmə meyarları (özünüqiymətləndirmə sorğusu) birmənalı şəkildə ləğv olunacaq". Bu haqda Müəllimlərin Milli Peşəkar İnkişaf Mərkəzinin yeni rəhbəri Berika Şukakidze bildirib.

"Müəllimlərin statuslarının saxlanılması siyasəti üzərində çalışırıq. Çünki əmək haqqı buna bağlıdır. Düşünürəm ki, hər şey asanlaşdırılmağa doğru gedəcək. Bu dəfə əminliklə deyə biləcəyim müəllimlərin özünüqiymətləndirmə sorğusunun ləğv olunmasıdır. Çünki pedaqoqların qiymətləndirilməsinin bu hissəsi tamamilə nəticəsiz oldu. Biz istəyirik ki, müəllimin sxem standartı elə səmərəli olsun ki, şagirdin şəxsi inkiafına və akademik uğuruna dəstək olsun. İstəmirik ki, müəllim sinif otağında səmərəsi olmayan işlər yerinə yetirsin. İstəyirik müəllimə sinif otağını daha da səmərəli etməkdə kömək edəcək tənzimləmə qəbul edək. Bizim məqsədimiz budur", - deyə Berika Şukakidze bildirib.

Müəllimin özünüqiymətləndirmə sorğusu sxemin məcburi tərkib hissəsi kimi mövcud olmayacaq və o, yalnız rekomendasiya formasında qalacaq. Yəni anketi istəyi olan müəllim dolduracaq. Berika Şukakidzenin dediyinə görə, Müəllimlərin Milli Peşəkar İnkişaf Mərkəzi Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyi ilə birgə müəllim sxeminə daxil ediləcək dəyişikliklərin üzərində aktiv çalışır və dekabrın sonunda və ya yanvarın ilk tarixlərində dəyişikliklər məlum olacaq.

Onun izahatına əsasən, peşəkar inkişaf təhsildə həmişə lazımdır. Çünki "uğurlu müəllimin adı Pifaqor teoremi deyil ki, bir dəfə kəşf edəsən, daha inkişaf lazım gəlməyə". B.Şukakidzenin sözlərinə görə, desentralizasiya olmalıdır və məktəb, müəllim daha çox güvən mandatı qazanmalıdır.

"Müəllimlərin Milli Peşəkar İnkişaf Mərkəzi desentralizasiya prosesində ilk iştirak edən olacaq. Məktəblərə və müəllimlərə daha çox etibar etməliyik, metodoloji baxımdan kömək etməliyik, pedaqoqun sistemdə aşkar edəcəyi hər növ uğur həvəsləndiriləcək", - bildib B.Şukakidze.

İndiyə qədər müəllimin özünüqiymətləndirmə sorğu vərəqəsini doldurması tədris ilinin başlanğıcında bütün müəllimlər üçün məcburi idi. Məlum olduğu kimi, müəllimlər sxemin bu "kağızdoldurma" tələbindən hey şikayət edirdilər.

Hazırladı: Nona KARKAŞADZE
Gürcü dilindən tərcümə: Aynurə ƏLİYEVA

# TƏHSİLİN KEYFİYYƏTİNİN İNKİŞAFI ÜZRƏ MİLLİ MƏRKƏZİN KOORDİNASİYA ŞURASI NƏ ÜZƏRİNDƏ ÇALIŞACAQ VƏ ÜZVLƏRİ KİMLƏR OLACAQ

Təhsilin Keyfiyyətinin İnkişafı üzrə Milli Mərkəzin idarəsi və inkişaf prosesi ilə maraqlanan tərəflərin qoşulmasını təmin etmək məqsədi ilə mərkəzin Koordinasiya Şurasının üzvlərinin tərkibi müəyyən edilib.

Koordinasiya Şurasının tərkibinə daxildirlər: nazirlik nümayəndələri, ictimai hüquqi şəxs forması və özəl hüquqi şəxs forması ilə təsis edilmiş təhsil müəssisələrinin rəhbərləri, işlə təmin edən və mülki (qeyri-hökumət) sektorunun nümayəndələri, xarici mütəxəssis və Milli Müəllim Mükafatının qalibi. Onların bilik və təcrübəsi mərkəzin işlərinin inkişafı üçün vacib olacaq. Yaxın gələcəkdə Koordinasiya Şurasına müsabiqə yolu ilə seçilərək tələbə də əlavə olunacaq.

Koordinasiya Şurası mərkəzin fəaliyyətini/strateji planlarını müzakirə edəcək. Dəyişikliklər və mərkəzin fəaliyyətinin əsas istiqamətləri haqqında təkliflər işləyib hazırlayacaq. Həmçinin avtorizasiya və akreditasiya standartlarının və prosedurlarının gələcəkdə daha da təkmilləşdirilməsi üçün təkliflər, mərkəzin fəaliyyət hesabatlarını və mərkəzin büdcə layihəsini işləyəcək. Mərkəzin işlərinin kənar qiymətləndirilməsinin nəticələrini, təhsilin keyfiyyətinin təmin edilməsi istiqamətində beynəlxalq əməkdaşlıq imkanlarını yaradacaq və müvafiq rekomendasiyalar hazırlayacaq.

Mərkəzin izahatına görə, qeyd olunan şura Təshilin Keyfiyyətinin İnkişafı üzrə Milli Mərkəzin hesabatlılıq mexanizminin formalaşmasına xidmət göstərir.

# TBİLİSİDƏ 3000 TƏLƏBƏ ÜÇÜN NƏZƏRDƏ TUTULMUŞ YENİ TƏLƏBƏ ŞƏHƏRCİYİ TİKİLƏCƏK



Gürcüstanın təhsil, elm, mədəniyyət və idman naziri Mixeil Batiaşvilinin bəyanatına görə, Tbilisi Dövlət Universitetinin Mağlivi korpusunun ətraf ərazisində Avropa standartlarına uyğun yeni tələbə şəhərciyi tikiləcək.

Nazirlikdə baş tutan mətbuat konfransında Mixeil Batiaşvili qeyd edib ki, tələbə şəhərciyi layihəsi üzərində aktiv fazada çalışmalar gedir və yaxın gələcəkdə tələbə kampusunda 3000-dən çox gəncə yaşayış və istirahət üçün vacib şərait yaradılacaq.

"Layihədə ümumi və fərdi otaqlar, eləcə də mərkəzi və ümumi yeməkxanalar, istirahət və sosial məkanlar, kitabxanalar, idman zalları, hovuz və multi-profilli bayır meydançaları nəzərdə tutulub. Kampusun 24 saatlıq mühafizə və təmizlik xidməti olacaq", - deyə M.Batiaşvili bildirib.

Nazirin dediyinə görə, şəhərcikdən yalnız TDU-nun deyil, başqa ali təhsil müəssisələrinin tələbələri də istifadə edəcəklər.

"Gürcüstanın Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyi ötən il layihəyə maraq göstərdiyini bəyan etmişdi. Bununla bir neçə investor maraqlandı. Qalib gələn şirkəti aşkarlamaq üçün uyğun olan hüquqi prosedurlara 2019-cu ildə başlanılacaq", - nazirliyin yaydığı məlumatda bildirilir.

# BOLNİSİDƏ 2 SAYLI UŞAQ BAĞÇASININ AÇILIŞI OLUB



Kvemo Kartli qubernatorunun müavini Zviad Cunaşvili və Bolnisi bələdiyyəsinin meri Davit Şerazadişvili 2 nomrəli uşaq bağçasının açılışını edib.

Bərpadan sonra bağçada 160 uşaq müasir standartlara uyğun şəraitdə məktəbəqədər hazırlıq keçəcək.

Layihə çərçivəsində binanın daxilində və xaricində bütün lazımi təmir işləri həyata keçirilib, kommunikasiya, su-kanalizasiya və elektrik sistemi yenilənib. Binanın üstü müasir tipli dam örtüyü ilə örtülüb, həmçinin bağçanın həyətində uşaqlar üçün atraksionlar quraşdırılıb.

Təmir-bərpa işləri bölgələrdə həyata keçiriləcək layihələr fondu və yerli büdcədən maliyyələşdirilərək aparılıb.

# QARDABANİ BƏLƏDİYYƏSİNİN SARTİCALA, MARTĞOPİ VƏ NORİO KƏNDLƏRİNDƏ YENİ BƏRPA OLUNMUŞ UŞAQ BAĞÇALARININ AÇILIŞI OLUB

Qardabani bələdiyyəsinin üç kəndində – Sarticala, Martğopi və Norioda yeni bərpa olunmuş uşaq bağçalarının açılışı olub. Açılış mərasimində Kvemo Kartli qubernatoru Şota Rexviaşvili, Qardabani meri Ramaz Budağaşvili və sakrebulo sədri Tariel Canxoteli iştirak ediblər.

Bağçaların bərpası işləri Qardabani bələdiyyəsinin büdcəsindən maliyyələşdirilib. Təmir işləri üçün 382 045 lari dəyərində məbləğ sərf olunub. Yenilənmiş infrastrukturdan təqribən 800-ə qədər uşaq istifadə edəcək.

"Cari ildə Qardabani bələdiyyəsi miqyasında 23 uşaq bağçası yenilənəcək. Uşaq



bağçalarının bərpası üçün ümumilikdə 2 859 917 lari xərclənəcək", - deyə Qardabani meriyasının mətbut xidmətinin yaydığı məlumatda bildirilir.

## KVEMO KARTLİ QUBERNATORU QARDABANİDƏ YENİ BƏRPA OLUNMUŞ UŞAQ BAĞÇALARININ AÇILIŞINDA İŞTİRAK EDİB

Noyabrın 19-u Kvemo Kartli qubernatoru Şota Rexviaşvili, Gürcüstan parlamentinin Qardabani üzrə majoritar deputatı Savalan Mirzəyev, Qardabani meri Ramaz Budağaşvili və digər rəsmi şəxslər Vaxtanqisi və Satsxenisi kəndlərində yeni bərpa olunmuş uşaq bağçalarının açılışını ediblər.



Tədris müəssisələrinin binaları layihəyə əsasən tam təmir olunub və müasir infrastrukturla təchiz edilib, atraksionlar quraşdırılıb. Vaxtanqisi kəndində uşaq bağçasının tikinti-bərpa işləri iki mərhələ olaraq həyata keçirilib və 263 419 lari xərclənib. Satsxenisi kəndinin uşaq bağçasının bərpa dəyəri isə 70 951 lari təşkil edib.

# DAHİ BƏSTƏKAR VƏ MÜTƏFƏKKİR ÜZEYİR HACIBƏYLİ



*Azərbaycanlı sənətkar və ziyalı Üzeyir Hacıbəyli Sovet dövründə daha çox musiqiçi kimi tanınmışdır. Musiqi sahəsində Azərbaycanda ilk dəfə opera sənətini milliləşdirən Hacıbəyli olmuşdur. Bu əsərlərdən biri də 1908-ci ildə yazdığı "Leyli və Məcnun" operasıdır. O, bu əsərlə böyük bir ilkə imza atmışdır. Bunun xaricində Azərbaycan xalqına və dünya musiqi tarixinə bəxş etdiyi əsərlərlə dahi bir musiqişünaş olduğunu ortaya qoymuşdur. Ancaq musiqi tarixinə adını qızıl hərflərlə yazdıran bəstəkarın bilinməyən və ya önə çıxmayan başqa önəmli tərəfləri də vardır. Bunlardan biri mütəfəkkir və ziyalı olmasıdır. Hacıbəyli Azərbaycan Xalq Cümhuriyyətinin (1918-1920) müstəqillik dövründə fəal olaraq Azərbaycan dövlətinə fikir olaraq böyük töhvələr vermişdir. Hacıbəylinin milli xətdə yer alması və Azərbaycan Respublikasını quran isimlər olan Məmməd Əmin Rəsulzadə, Fətəli Xoyski və Nəsib bəy Yusufbəyli kimi isimlərlə yaxın əlaqə içərisində olması çox vacib və önəmli bir məsələdir. Eyni zamanda müstəqillik dövründə çap olunan "Azərbaycan" qəzetinin də fəal qələmlərindən biridir. Üzeyir Hacıbəylinin "Azərbaycan" qəzetində 90-dan çox məqaləsi dərc olunmuşdur. Bu məqalələri gözdən keçirdiyimizdə görürük ki, Hacıbəyli əslində bir musiqiçi olduğu qədər, milli xətti təqib edən jurnalist və ictimiayyətə istiqamət verən əhəmiyyətli bir mütəfəkkirdir. Azərbaycan müstəqillik və inkişaf seyrini izlərkən bu adın üzərində dayanmaq və həyat hekayəsindən başlayaraq davam etmək yerində olacaqdır.*

Üzeyir Hacıbəyli 18 sentyabr 1885-ci ildə Azərbaycanın Şuşa qəzasının Ağcabədi kəndində dünyaya gəlib. Kiçik yaşlarında ailəsi Şuşa şəhərinə köçür. Üzeyir ilk təhsilini mədrəsədə alaraq yüksək səviyyədə ərəb və fars dillərini öyrənir. Daha sonra Şuşadakı rus-tatar məktəbində oxuyur. 1899-cu ildə təhsil almağa başladığı Qori Müəllimlər Seminariyasını 1904-cü ildə bitirir. Qarabağın Hadrut kəndində bir il müəllimlik etdikdən sonra 1905-ci ildə Bakıya gedir və həyatının sonuna qədər burada yaşayır. İlk məqaləsi Əli bəy Hüseynzadə ilə Əhməd Ağaoğlunun nəşr etdirdikləri "Həyat" qəzetində çap olunur. Əli bəy Hüseynzadənin müdir olduğu "Səadət" məktəbində müəllimlik edir. Hələ iş həyatının ilk illərində müəllimlikdən elm və fikir adamlığına doğru istiqamət alır. Bir tərəfdən uşaqlar üçün hekayə və dərs kitabları tərcümə edir, digər tərəfdən "Rus-tatar, tatar-rus" adlı lüğət hazırlayıb çap etdirir. Rus yazıçısı Qoqolun məşhur "Şinel" əsərini Azərbaycan dilinə tərcümə edib yayımlayır. Sənətə, xüsusi ilə də musiqiyə olan marağını Moskva və Peterburqda aldığı musiqi təhsili ilə daha da inkişaf etdirir.

Bu tarixlərdən etibarən Hacıbəylinin jurnalistika dövrü də başlayır. "Həyat", "İrşad", "Tərəqqi" və "Həqiqət" qəzetlərində tərcümanlıq, redaktorluq edir və publisistik yazılar dərc etdirir. "Füyuzat", "Yeni iqbal", "Molla Nəsrəddin", "Kaspi" və "Azərbaycan" qəzet və məcmuələrində müxtəlif təxəllüslərlə siyasi və ictimai məqalələr qələmə alır.

1910-cu illər Hacıbəylinin opera və jurnalistika sahələrinə daha çox önəm verdiyi illərdir. Yenə bu dövrdə "Siyasi, hüquqi, iqtisadi və hərbi terminlər, Türk-Rus və Rus-Türk" adlı bir lüğət nəşr edir. Bu lüğət ictimai-siyasi və fəlsəfi terminlərin tərtibində, ən önəmlisi də demokratik ideallarын təbliğində çox əhəmiyyətli rol oynamışdır. Hacıbəyli öz fəaliyyətinə milli maarifçi cəbhəsinin fəal nümayəndələrindən biri olaraq başlamış və yazdığı məqalələrdə dövrün əhəmiyyətli məsələlərinə – xalqın maarifi uğrunda mübarizə, milli dil problemi, rus mədəniyyətinə münasibət kimi problemləri ələ almışdır. Hacıbəyli dövrünün ən aktual siyasi mövzuları olan Rusiyada 1905-ci il inqilabı və İran inqilabı haqqında yazılar yazmışdır.

Hacıbəyli Xalq Cümhuriyyəti dövründə daha aktiv olur. Əvvəl qardaşı Ceyhun Hacıbəylinin sonra isə özünün rəhbər olduğu "Azərbaycan" qəzetində mütəmadi olaraq aktual məqalələr yazır. Bu qəzetdə çıxan "İstiqlal və istiqbal ümidi", "Vəzifəmiz nədir", "Rusiya əhvalı", "İçimizdəki Denikinlər", "Milliləşmək", "Partiyalarımız", "İstiqlaliyyət", "Azərbaycan parlamenti", "Şimalımızın halı", "Qarabağ haqqında", "Andranik məsələsi" başlıqlı yazıları dövrün fikir, siyasət və tarix həyatına ayna tutacaq xüsusiyyətdədir. Hacıbəylinin Azərbaycan Respublikasının qurulmasının birinci ili münasibətilə "İstiqlal" məcmuəsində yazdığı "Azərbaycan türklərinin musiqisi haqqında" yazısı musiqi elmi üçün çox qiymətli əsərlərdən biridir.

1918-ci ildə müstəqil Azərbaycan Respublikasının qurulmasıyla birlikdə Hacıbəyli ədəbi fəaliyyətindən uzaqlaşaraq jurnalistika peşəsinə yönəldi. Azadlığın verdiyi şövqlə vətən, millət və dövlət haqqında odlu-alovlu yazılar yazdı. Azərbaycan xalqını yeni bir həyəcan ətrafında birləşdirməyə səy göstərdi. Hacıbəyli inanmış və təmiz bir vətənpərvər olmaqla bərabər vətənpərvərlik fikrini sənət əsərlərinin motiv quruluşunda nəqş etdi. Müstəqil Azərbaycan Respublikası (1918-1920) dövründə müstəqilliyin verdiyi həyəcan və şövqlə yazılan yazıları son dərəcə hərarətli bir üsluba malikdir. Digər tərəfdən, bu yazılarda da, dərin bir mədəniyyət təcrübəsinin izləri görünür. Üzeyir Hacıbəyli Azərbaycan Milli Marşının və xüsusilə də Türkiyədə çox sevilən "Çırpınırdın Qara dəniz" mahnısının bəstəkarıdır.

31 Mart ermənilərin azərbaycanlılara qarşı törətdikləri qırğının ildönümündə "Azərbaycan" qəzetində imzası görünən yazıçılardan biri də Üzeyir Hacıbəyli idi. Üzeyir Hacıbəyli bir il əvvəl Bakıdan ayrılmaq məcburiyyətində qalaraq İrana getmiş, ancaq Qafqaz İslam Ordusu Bakını geri aldıqdan sonra vətənə qayıtmışdır. Qaynaqlardan aydın olur ki, qırğın zamanı müsəlman mütəfəkkir və sənətkarların böyük əksəriyyəti şəhəri tərk edərək yaxın yerlərə, xüsusilə də Dağıstan və İrana sığınırlar. Qafqaz İslam Ordusunun 15 sentyabr 1915-ci ildə Bakıya gəlişindən sonra Üzeyir bəy də daxil olmaqla dövrün ziyalıları Bakıya geri dönürlər.



*Azərbaycan xalqının ən əhəmiyyətli musiqişünas və fikir öndərlərindən olan Üzeyir Hacıbəyli (1885-1948) yaşadığı dövrün mədəni və düşüncə həyatında təsirli olduğu qədər, dövrün mətbuat həyatında da əhəmiyyətli izlər buraxmışdır. 1918-ci ildə Azərbaycan Demokratik Respublikasının elanında və müstəqillik mübarizəsində müxtəlif jurnallarda və qəzetlərdə yazdığı yazılarında Azərbaycan xalqını maarifləndirməyə çalışmışdır. Üzeyir Hacıbəylinin yazılarının nəşr olunduğu və hətta bir dövr özünün də rəhbəri olduğu əhəmiyyətli qəzetlərdən biri də 1918-ci ildən etibarən Bakıda yeni Respublikanın rəsmi qəzeti olaraq çıxan "Azərbaycan" qəzetidir. Hacıbəyli bu qəzetdə Azərbaycan xalqının istiqlal mübarizəsinə, fikir, siyasi və tarixi həyatına ayna tutacaq yazılar qələmə almışdır. Hacıbəylinin "Azərbaycan" qəzetində yazdığı yazılar Azərbaycan və Qafqaz tarixi baxımından çox əhəmiyyətlidir. Musiqişünas Üzeyir Hacıbəylinin mütəfəkkir və ziyalı yönlərini anlaya bilsək Çar Rusiyasını, Sovetlər dövrünü, Azərbaycanın ilk müstəqillik dövründəki ziyalıların mövqelərini və ümumi Qafqazın sosial və mədəni həyatını daha aydın şəkildə anlaya bilərik.*

Cəfər MUSTAFALI
**Mərmərə Universiteti, Türkiyat Elmi Araşdırmalar İnstitutu, Ümumi Türk Tarixi üzrə magistr tələbəsi.**

## GÜRCÜSTANIN BƏLƏDİYYƏLƏRİNDƏ 24 SAATLIQ SU TƏMİNATINDAN 230 MİNDƏN ÇOX ABONENT İSTİFADƏ EDİR

2013-2018-ci illərdə Regional İnkişaf və İnfrastruktur Nazirliyi və Birləşmiş Su Təchizatı Şirkəti tərəfindən Gürcüstanın şəhərlərində və bələdiyyələrində su təminatı və kanalizasiya ifnrastrukturu işləri baxımından 600 milyon lari dəyərində 59 layihə həyata keçirilib. Regional İnkişaf və İnfrastruktur Nazirliyindən verilən məlumata görə, həyata keçirilən layihələr nəticəsində davamlı su təminatından və kanalizasiya sistemindən 231 691 nəfər istifadə edir, 200 000-ə qədər ailənin isə su təminatı rejimi yaxşılaşdırılıb.

Bütün regionlarda işlər həyata keçirilib: Sameqrelo-Zemo Svanetidə su ilə bağlı 11, İmeretidə 10, Raca-Leçxumi və Kvemo Svanetidə 2, Quriyada 4, Mtsxeta-Mtianetidə 8, Samtsxe-Cavaxetidə 6, Kaxetidə 9, Şida Kartlidə 6, Kvemo Kartli regionunda isə 3 layihə həyata keçirilib.

Hazırda su təchizatı şirkəti su təminatı və kanalizasiya şəbəkəsi, təmizləmə tikinti-bərpa işləri və sahil bəndləri işlərinə dair 17 layihə həyata keçirir. Su təchizatı sisteminin tikinti layihəsinin başa çatmasından sonra 203 000-ə qədər abonentin stabil su təminatı olacaq. Kanalizasiya layihələrinin başa çatması nəticəsində infrastrukturdan 112 000-ə qədər ailə istifadə edəcək.

Hazırda su təchizatı şirkəti Mtsxeta-Mtianeti, Kvemo Kartli (2 layihə), Sameqrelo-Zemo Svaneti (8 layihə), Quriya (2 layihə), İmereti (2 layihə), Samtsxe-Cavaxeti (2 layihə) regionlarında işlər həyata keçirir. İşlər başa çatdıqdan sonra su təminatı ilə Cvari kəndinin 10 000, Zuqdidi şəhərinin 70 000, Kutaisinin 100 000-dən çox ailəsi sudan istifadə edəcək. Urekinin 2800 yerli sakini və 20 000-ə yaxın turisti su ilə təmin olunacaq. Kanalizasiya sistemi Ciaturada 20 000-ə qədər, Zuqdididə 51 000-ə qədər, Potidə 55 000-ə qədər, Anakliyada 3 000 və Urekidə 2800 abonent üçün qurulacaq.

Birləşmiş Su Təchizatı Şirkəti 2019-cu ildə region miqyasında 13 böyük infratsruktur layihəsinə başlamağı planlaşdırır. Onlar başa çatdıqdan sonra 100 000 adam stabil su təminatı və müasir kanalizasiya sistemindən istifadə edəcək.

"Artıq Marneulinin su təminatı və kanalizasiya sisteminin, Bolnisi kollektoru və kanalizasiya sisteminin tikilməsinə dair müqavilə bağlanıb. Mobilləşdirmə işləri dekabrda, tikinti işləri isə gələn ilin ilk kvartalında başlayacaq.

Su təminatı işlərini Gürcüstan Regional İnkişaf və İnfrastruktur Nazirliyinin Bələdiyyə İnkişaf Fondu da həyata keçirir. 2012-ci ildən bu günə qədər fond tərəfindən 234 624 030 lari dəyərində 79 su təminatı layihəsi və 40 827 514 lari dəyərində 12 kanalizasiya layihəsi həyata keçirilib.

Su sisteminin bərpası-qurulması regional fonddan da maliyyələşdirilir. Xobi bələdiyyəsinin Qulevi kəndində su borularının çəkilməsi üçün 920 min larilik layihə artıq başa çatıb. Nəticədə 2000-dən çox yerli sakin içməli su ilə təmin olunacaq. Yeni tikilmiş su magistralının uzunluğu 34 km-dir. Qeyd edək ki, Qulevidə su içmək üçün yararsızdır və illər ərzində içməli su sakinlərə çənlərdə verilirdi", - nazirliyin məlumatında bildirilir.

## NOYABRIN 20-Sİ RUSTAVİDƏ "KVEMO KARTLİ REGIONAL İNKİŞAF AGENTLİYİ"NİN TƏŞKİLATÇILIĞI İLƏ DUZ İSTEHSALI MÜƏSSİSƏSİNİN AÇILIŞINA HƏSR OLUNMUŞ TƏDBİR KEÇİRİLİB



Tədbirdə Gürcüstanın baş nazirinin müşaviri Sozar Subari, Kvemo Kartli qubernatorunun müavinləri Zviad Cunaşvili və Kaxa Koberidze, regional inkişaf agentliyinin icraçı direktoru Mixeil Qurstkaia, "GLOBAL Enterprises LTD" şirkətinin xarici və gürcü investorları, Gürcüstanın İqtisadiyyat və Davamlı İnkişaf Nazirliyinin nümayəndələri və iş adamları iştirak ediblər.

"Kvemo Kartli Regional İnkişaf Agentliyi"nin dəstəyi ilə və bölgə qubernatoru Şota Rexviaşvilinin aktiv iştirakı nəticəsində "Gürcüstanda istehsal et" dövlət proqramı çərçivəsində MMC "GLOBAL Enterprises" Rustavi-Qardabani yolu kəsişməsində duz istehsal edən müəssisə inşa edəcək. Layihəyə əsasən, ilk mərhələdə təqribən bir milyon larilik yatırım edilməsi planlaşdırılır və layihə çərçivəsində müasir standartlara uyğun duz zavodunun tikintisi həyata keçiriləcək. Zavod duzun hazırlanması üçün müasir yodlaşdırma və qablaşdırma qurğuları ilə təchiz olunacaq.

Biznesə dəstək üçün şirkətə İqtisadiyyat və Davamlı İnkişaf Nazirliyinin Milli Dövlət Əmlak Agenliyi 15512 kv.m. torpaq sahəsi verib. Zavod ildə minimum 2500 ton məhsul istehsal etməyi planlaşdırır. Bu isə Gürcüstana idxal olunan duzu əvəz edəcək. Məhsulun satışı Avropa İttifaqı bazarında da həyata keçiriləcək. Müəssisədə 40-50 yerli sakin, həmçinin fiziki olaraq məhdud imkanlı şəxslər işlə təmin olunacaqlar.

Şirkət Pakistandan gələn xammalla yodlu və yodsuz duz, müalicəvi SPA zalların tikintisi üçün kərpiclər və hava təmizləyən lampaların istehsalını həyata keçirməyi planlaşdırır.

## BAYDAR KƏNDİNDƏ MƏSCİD ƏSASLI BƏRPA OLUNUR



Gürcüstanın Dini Məsələlər üzrə Dövlət Agentliyinin yaydığı məlumata əsasən, Marneuli rayonunun Baydar kəndindəki məscid əsaslı bərpa olunur.

Agentlik rəhbəri Zaza Vaşakmadze, Marneuli rayonunun mer vəzifəsini icra edən Zaur Tabatadze və Gürcüstan Müsəlmanları İdarəsinin müftisi Yasin Əliyev məsciddə aparılan tikinti-bərpa işləri ilə tanış olublar.

Z.Vaşakmadze Baydar kənd məscidinin bərpası ilə bağlı yerli sakinləri təbrik edərək, onları narahat edən məsələlərlə maraqlanıb.

Baydar kənd sakinləri məscidin bərpa olunmasına görə Gürcüstanın Dini Məsələlər üzrə Dövlət Agentliyi və Marneuli rayon rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, Gürcüstanda 320-dən çox məscid var və onların 200-ü dövlət qeydiyyatına alınaraq Gürcüstan Müsəlmanları İdarəsinin səlahiyyətinə verilib.

## SOCAR ŞİRKƏTİ QARDABANİ VƏ MARNEULİDƏ MƏHDUD FİZİKİ İMKANLI ŞƏXSLƏRƏ ƏLİL ARABALARI VERİB



SOCAR şirkəti 26-27 noyabr tarixlərində Qardabani və Marneuli bələdiyyələrində yaşayan məhdud fiziki imkanlı vətəndaşlara yardım məqsədi ilə əlil arabaları hədiyyə edib. Əlil arabalarının verilməsində Qardabani meri Ramaz Budağaşvili, Marneuli merinin müavini Laşa Lobjanidze, Kvemo Kartli qubernatorunun müavini Zaur Darğallı və şirkətin nümayəndələri iştirak ediblər.

## BOLNİSİDƏ 2600 HEKTAR TORPAQ SAHƏSİNDƏ SUVARMA SİSTEMİ YAXŞILAŞDIRILACAQ

Noyabrın 27-i Kvemo Kartli qubernatoru Şota Rexviaşvili, Gürcüstanın Ətraf Mühitin Mühafizəsi və Kənd Təsərrüfatı Nazirliyinin "Gürcüstan Meliorasiya" MMC-nin baş direktoru Otar Şamuqiya və Bolnisi bələdiyyəsinin meri Davit Şerazadişvili İmirhəsən kədninin suvarma sisteminin tikinti işlərini və əsas kanalın bərpa prosesini nəzərdən keçiriblər.

Bərpa olunmuş suvarma sistemindən Bolnisi bələdiyyəsinin Capala və Savaneti kəndinin 2600 hektar torpaq sahəsində su təminatı yaxşılaşdırılacaq. Layihənin dəyəri 1 895 000 larini təşkil edir.

İmirhəsənin əsas suvarma kanalının 5,5 kilometrlik hissəsi bərpa olunacaq, suvarma arxlarının kənarlarına beton bəndlər düzüləcək, kanalizasiya arxları qurulacaq, suyu paylayan quyu, avtomobil və piyada üçün körpülər tikiləcək. Aparılan işlərdə 30 yerli sakin işlə təmin olunub.

## REGIONAL İNKİŞAF VƏ İNFRASTRUKTUR NAZİRİ MARNEULİ ƏHALİSİ İLƏ GÖRÜŞDƏ REGIONDA HƏYATA KEÇİRİLƏN VƏ PLANLAŞDIRILAN LAYİHƏLƏRDƏN DANIŞIB



Gürcüstanın baş nazirinin müavini, regional inkişaf və infrastruktur naziri Maia Tskitişvili Kvemo Kartli qubernatoru Şota Rexviaşvili ilə birgə Marneuli bələdiyyəsinin əhalisi ilə görüş keçirib və su təchizatı istiqamətində planlaşdırılan infrastruktur layihələri haqqında məlumat verib.

Tədbirdə həmçinin regional inkişaf və infrastruktur nazirinin müavinləri, Birləşmiş Su Təchizatı Şirkətinin nümayəndələri, Marneulinin majoritar deputatları Tamaz Naveriani və Ruslan Hacıyev, mer vəzifəsini yerinə yetirən Zaur Tabatadze, sakrebulo sədri Amiran Qiorqadze, quberniya və yerli özünüidarəetmənin başqa rəhbər şəxsləri iştirak ediblər.

Görüş dialoq rejimində baş tutub. Görüşdə Marneuli və Bolnisi rayonlarının su təminatı və kanalizasiya sistemi ilə bağlı həyata keçiriləcək layihənin təqdimatı keçirilib. Ümumi dəyəri təxminən 56 milyon dollar olan layihənin icrasına bu ilin dekabr ayında başlanılacaq. 2021-ci ilin mart ayında başa çatdırılması nəzərdə tutulan layihə sayəsində Marneuli sakinləri 24 saat ərzində içməlu su ilə təmin olunacaqlar.

Hazırda Marneuli əhalisinin 83 faizinə içməli su gündə 5-6 saatlıq qrafiklə verilir. Layihə başa çatdıqdan sonra Marneuli şəhəri və Marneuli bələdiyyəsinin kəndlərinin 35 200-ə qədər sakini stabil, keyfiyyətli su təchizatı ilə təmin olunacaq.

Marneulidə əhalinin təqribən 25%-i və Bolnisidə 40%-i kanalizasiya infrastrukturundan istifadə edir.

Layihə başa çatdıqdan sonra Marneuli, Bolnisi və Qızılhacılı kəndinin 38 000-ə qədər sakini hazır kanalizasiya infrastrukturundan istifadə edəcək. Layihə çərçivəsində su nasos stansiyalarının və üç rezervuarın yenisi ilə əvəz olunması, eləcə də yeni kanalizasiya borularının qurulması (121 km) və kanalizasiya nasos stansiyasının tikintisi planlaşdırılır.

Layihəni Asiya İnkişaf Bankı, tikinti işlərini isə Azərbaycan şirkəti "Akelik Group" həyata keçirəcək.

Layihənin başa çatdırılması 2021-ci ilin mart ayında planlaşdırılır.

Gürcüstanın regional inkişaf və infrastruktur nazirinin birinci müavini, Yollar Departamentinin sədri İrakli Karseladze çıxışında Kvemo Kartli bölgəsində həyata keçirilən və planlaşdırılan yol infrastruktur layihələri barədə danışıb.

O, bölgədə hazırda 12 infrastruktur layihənin həyata keçirildiyini qeyd edib: "Bu layihələrin reallaşdırılmasına 45,7 milyon lari ayrılıb. Layihələrin 6-sı bu ilin sonuna qədər, yerdə qalanlarının isə 2019-cu ilə başa çatdırılması nəzərdə tutulub".

İ.Karseladze bildirib ki, bölgədə həyata keçiriləcək infrastruktur layihələr sayəsində yolların 82%-nin vəziyyəti yaxşılaşdırılacaq. O, layihələrin icrasına cəlb olunacaq işçilərin 80%-nin yerli sakinlər olacağını vurğulayıb.

Tədbirdə həmçinin bildirilib ki, Marneuli rayonunun 7 kəndində yeni məktəblərin inşa olunmasına 27 milyon lari, təmirə ehtyacı olan məktəblərin bərpası üçün 5 milyon lari ayrılıb.

Rayonda həmçinin ümumi dəyəri 7 milyon lari olan mərkəzi stadion və 21 kənddə ambulator məntəqələr tikiləcək.

## MARNEULİNİN SADAXLI KƏNDİNDƏ GENİŞ MİQYASLI SU LAYİHƏSİ HƏYATA KEÇİRİLİR



Marneuli bələdiyyəsinin Sadaxlı kəndində su sisteminin qurulmasına dair işlər aktiv şəkildə davam edir.

Marneuli meriyasından verilən məlumata görə, layihə çərçivəsində yeni su borusu şəbəkəsinin qurulması planlaşdırılır.

"Layihədə sayğacların və yanğın hidrantlarının montajı, yeni rezervuarın və mövcud olan su nasos stansiyasına əlavə nasosun montajı nəzərdə tutulub. Layihə regionlarda həyata keçirilməli olan layihələr fondunun və yerli büdcənin birgə maliyyəsi ilə həyata keçirilir. Layihənin müqavilə dəyəri 1 305 935 larini təşkil edir", - meriyanın yaydığı məlumatda bildirilir.

yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | "ieni ioli" sazogadoebrivi gazeTi | qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

# Yeni YOL

30 NOYABR 2018-Cİ İL
№019 (78)

## GÜRCÜSTANDA ƏN KASIB ƏHALİ HANSI BÖLGƏDƏ YAŞAYIR

***Gürcüstanda ən kasıb əhali Raca-Leçxumi və Kvemo Svaneti bölgələrində yaşayır. Bu bölgələrdə sakinlərin 41%-dən çoxu yardım alır. Kasıb əhalinin azlığı ilə isə Samtsxe-Cavaxeti seçilir. Orada əhalinin 7%-i sosial yardım alır.***

2018-ci ilin 1 yanvarına əsasən Gürcüstan miqyasında 418 351 nəfər yardım alır. Bu isə ümumi əhalinin 11,2%-ni təşkil edir. Statistika Xidmətinin göstəricilərinə əsasən, ölkə əhalisinin sayı 3 729 633 nəfərdir.

"BusinessPressNews" Milli Statistika Xidmətinin metodologiyasına və Sosial Xidmət Agentliyinin göstəricilərinə əsasən Gürcüstanın bölgələrində kasıblıq həddində olan əhalinin faizini hesablayıb. Hesablamalar nəticəsində məlum olub ki, ən kasıb region Raca-Leçxumi və Kvemo Svanetidir. Orada 30 246 nəfər yaşayır, onun 12 413 nəfəri yardım alır və bu, əhalinin 41%-ni təşkil edir.

Statistik göstəricilərə əsasən, Raca-Leçxumi və Kvemo Svanetidən sonra Şida Kartli gəlir. Orada 259 251 nəfər yaşayır, onun 43 920 nəfəri sosial yardım alır. Bu isə region əhalisinin 17%-dir.

Şida Kartlidən sonra Mtsxeta-Mtianeti sakinləri ən çox yardım alanlar sırasındadır. Orada cəmi 93 897 nəfər yaşayır. Sosial yardımı isə 14 655 nəfər (15,6%) alır.

Sameqrelo-Zemo Svaneti və Quriya regionlarının hər ikisində əhalinin 15%-i sosial yardım alır. Sameqrelo-Zemo Svaneti əhalisinin sayı 320 805 nəfərdir. Onun 48 018 nəfəri yardım alır. Quriya əhalisi isə 110 524 nəfəri təşkil edir, sosial yardım alanların sayı isə 16 597 nəfərdir.

Kaxeti regionu bir faizlə geridə qalır, orada sosial yardım alan əhali 14%-i təşkil edir. Regionda cəmi 314 681 nəfər yaşayır, sosial yardım isə 44 300 nəfər alır.

İmereti regionunda cəmi 507 038 nəfər yaşayır, onun 59 932 nəfəri sosial yardım alır. Bu isə region əhalisinin 12%-ni təşkil edir.

Sosial yardım alanların sayı 10%-dən az olan regionlar isə Acarıstan, Samtsxe-Cavaxeti, Kvemo Kartli və Tbilisidir.

Acarıstanda 346 347 nəfər yaşayır, onun 34 734 nəfəri (10%) sosial yardım alır. Kvemo Kartlidə isə 432 264 nəfər yaşayır, onun 41 763 nəfəri (9,6%) sosial yardım alır. Faiz olaraq ən az sosial yardım alan əhali Samtsxe-Cavaxetidədir. Bu regionda 155 903 nəfərdən yalnız 10 572 nəfəri yardım alır. Bu isə regionun 7%-i deməkdir.

Paytaxt Tbilisidə isə cəmi 1 158 677 nəfər yaşayır, onun 91 447 nəfəri sosial yardım alır. Bu isə Tbilisi əhalisinin 7,9%-ni təşkil edir.

### BÖLGƏLƏR ÜZRƏ ƏHALİNİN NEÇƏ FAİZİ YARDIM ALIR

| ƏHALİ | | YARDIM |
|---|---|---|
| 1 158 677 | TBİLİSİ | 7.9 % |
| 346 347 | ACARA | 10 % |
| 110 524 | QURİYA | 15 % |
| 507 038 | İMERETİ | 12 % |
| 314 681 | KAXETİ | 14 % |
| 93 897 | MTSXETA-MTİANETİ | 15.6 % |
| 30 246 | RACA-LEÇXUMİ VƏ KVEMO SVANETİ | 41 % |
| 320 805 | SAMEQRELO-ZEMO SVANETİ | 15 % |
| 155 903 | SAMTSXE-CAVAXETİ | 7 % |
| 432 264 | KVEMO-KARTLİ | 9.6 % |
| 259 251 | ŞİDA-KARTLİ | 17 % |

## GÜRCÜSTANDA İŞSİZLİK SƏVİYYƏSİ 12,2 % TƏŞKİL EDİB

Gürcüstanın Milli Statistika İdarəsinin məlumatına əsasən, bu ilin III rübündə ölkədə işsizlik səviyyəsi 12,2% təşkil edib. İşsizlik göstəricisi rüblük müqayisədə 0,1% artıb.

Gürcüstanda iqtisadi fəallıq səviyyəsi 64,3% təşkil edib. İşsizlik səviyyəsi kişilər arasında 13%, qadınlar arasında isə 11,3% olub.

Bu göstərici şəhərlərdə 18,3%, kəndlərdə isə 6%-ə bərabər olub.

İşsizlik səviyyəsinin artması mövsümi faktorlarla, təhsil sektorunda çalışanların sayının azalması və dayələr arasında işlə təminatın aşağı olması ilə əlaqələndirilir.

Gürcüstanda cari ilin I rübündə işsizlik səviyyəsi 14% təşkil edib. Buna müvafiq olaraq, II və III rüblərdə işsizlik səviyyəsində azalma olub.

## KVEMO KARTLİ RƏSSAMLARININ ƏL İŞLƏRİNDƏN İBARƏT KATALOQUN TƏQDİMATI KEÇİRİLİB



Noyabrın 22-si Rustavi Tarix Muzeyində Rustavi və Kvemo Kartli Rəssamlar Birliyi – "Qamma"-nın üzvlərinin əl işlərindən ibarət olan kataloqun təqdimat mərasimi və kataloqda yer alan rəssamların rəsm əsərlərindən ibarət sərgi baş tutub.

Tədbirdə Kvemo Kartli qubernatorunun müavini Kaxa Koberidze, Rustavi meri İrakli Tabağua, yerli özünüidarəetmənin rəhbər şəxsləri, rəssamlar, heykəltəraşlar və sənətsevərlər iştirak ediblər.

Gürcü və ingilis dillərində olan kataloq Kvemo Kartli qubernіyasının təşəbbüsü və bölgə bələdiyyələrinin dəstəyi ilə nəşr olunub.

"Kvemo Kartlidə bir çox bacarıqlı rəssam və heykəltəraş çalışır və möhtəşəm əl işləri yaradırlar. Bu işlər bir çox muzeylərdə qorunur və yüksək avtoriteti olan kataloqlara daxil olub. Kvemo Kartlinin Qubernator Administrasiyası və bölgəyə daxil olan bələdiyyələrin dəstəyi ilə qərar verildi ki, kataloq nəşr edilsin. Alboma bölgədə fəaliyyət göstərən 70 rəssamın və heykəltəraşın müxtəlif əl işləri daxil edilib. Düşünürəm ki, kataloqun nəşri yaxşı işdir və bizim sənətkarların nəinki bölgədə, həm də ölkədə və ölkə sərhəddindən kənarda tanınmasına səbəb olacaq", - deyə Kvemo Kartli qubernatorunun müavini Kaxa Koberidze bildirib.

Qeyd edək ki, Rustavi və Kvemo Kartli bölgəsindən olan 70 rəssamın əl işlərindən ibarət kataloqda Qardabanidən olan gənc rəssamlar Azər Musaoğlu və Rasim Həsənov da yer alıb.

## RUSTAVİ TEATRINDA KVEMO KARTLİ YAZARLARININ ƏSƏRLƏRİNDƏN İBARƏT KİTABIN TƏQDİMATI OLUB



Rustavi Peşəkar Dram Teatrında Kvemo Kartlidə fəaliyyət göstərən yazarların əsərlərindən ibarət kitabın təqdimat mərasimi keçirilib. Kitabda Kvemo Kartli bölgəsindən olan 90 yazıçı və şairin əsərləri yer alıb. Onların arasında qeyri-gürcü yazarların da yaradıcılıq nümunələri var.

Təqdimat mərasimində bölgə yazarları ilə yanaşı Kvemo Kartli qubernatorunun müavini Kaxa Koberidze, Rustavinin Gürcüstan parlamentində majoritar deputatı Paata Mxeidze, Marneuli merinin vəzifəsini yerinə yetirən Zaur Tabatadze, Rustavi meri İrakli Tabağua, bölgə bələdiyyələrinin rəhbər şəxsləri, Gürcüstan Yazıçılar Birliyinin üzvləri və dəvət olunmuş qonaqlar iştirak ediblər.

Qeyd edək ki, kitab Kvemo Kartlinin Qubernator Administrasiyasının təşəbbüsü və bölgə bələdiyyələrinin dəstəyi ilə nəşr edilib.

## NİKO PİROSMANİNİN RƏSM ƏSƏRİ YÜKSƏK QİYMƏTƏ SATILIB



Məşhur gürcü rəssamı Niko Pirosmaninin "Ləçək örtmüş gürcü qadını" adlı rəsm əsəri Londonun Sotbi hərracında 2 230 000 funt sterlinqə satılıb. Bu Pirosmaninin hərracda ən baha qiymətə satılan əsəridir.

Sotbi hərracının veb səhifəsində yerləşdirilmiş məlumata əsasən, rəsm əsəri tanınmış Avstriya yazıçısı Stefan Sveyqin kolleksiyasında imiş. O, tablonu 1928-ci ildə Moskvaya səyahəti zamanı əldə edibmiş.

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım Və Maarifləndirmə Təşkilatı"

Redaktor:
Azər Musaoğlu
Yayım Direktoru:
Hacı Bəkiroğlu
Qrafik dizayn:
Elsevər Əhmədov

ÜNVAN: Qardabani şəh. Kolxoz küç, 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet həlalik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.